**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

Bakı şəhəri | № 231/4 | 25 aprel 2012-ci il

IFAC-ın Peşə Etikası Məcəlləsinin tərcüməsi,
redaktəsi və nəşri barədə

Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - "IFAC-ın Peşə Etikası Məcəlləsinin tərcüməsi, redaktəsi və nəşri barədə" 2.1.4, 7.3 və 8-ci müvafiq bəndlərinin icrası ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun məlumatını müzakirə edərək və bu məsələyə dair Şura üzvlərinin təkliflərini nəzərə alaraq, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. IFAC-ın Peşə Etikası Məcəlləsinin tərcüməsi, redaktəsi və nəşri barədə sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun məlumatı nəzərə alınsın (əlavə olunur).
2. IFAC-la aparılmış danışıqlara və əldə olunmuş razılığa əsasən IFAC-ın 2010-cu ildə nəşr edilmiş Peşə Etikası Məcəlləsinin tərcüməsi IFAC-ın 2012-ci ildə nəşr olunacaq Peşə Etikası Məcəlləsinin tərcüməsi ilə əvəz olunması məqsədəmüvafiq hesab edilsin.
3. Sədrin müşaviri A.Kərimova tapşırılsın ki, Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının "IFAC-ın Peşə Etikası Məcəlləsinin tərcüməsi, redaktəsi və nəşri barədə" yuxarıda göstərilən 2.1.4, 7.3 və 8-ci müvafiq bəndlərinin icra müddətində müvafiq dəyişikliklər etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**